

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 oktyabr 2024-cü il №82 (2893) https://mod.gov.az Qiyməti 30 qəpik


## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım,

29 Oktyabr - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Fəxrlə qeyd etmək istərdim ki, Türkiyə Respublikası tarixinin ikinci yüzilliyinə siyasi, iqtisadi, hərbi və digər hər bir cəhətdən qüdrətli, qabaqcıl və sabit, beynəlxalq aləmdə yüksək nüfuz və etimad qazanmış, qlobal məsələlərdə söz sahibi olan güclü ölkə olaraq qədəm basmışdır. Bütün bu möhtəşəm nailiyyətlərin əldə olunması məhz Sizin uzaqgörən və müdrik rəhbərliyiniz altında aparılan siyasət və gərgin əməyiniz nəticəsində mümkün olmuşdur.

Dünyada güc mərkəzinə çevrilmiş qüdrətli Türkiyənin bütün uğurları bizi də öz uğurlarımız qədər sevindirir və ruhlandırır. Bu gün Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək zirvədə olmasından, sarsılmaz qardaşlığımızdan böyük fərəh hissi duyuruq. Dinamik və fəal inkişaf edən, regional əməkdaşlığın onurğa sütununu təşkil edən müstəsna dövlətlərarası əlaqələrimiz bölgədə inkişafa, sülhə və təhlükəsizliyə böyük töhfə verməklə yanaşı bütün Avrasiya üçün önəmli amil rolunu oynayır.

İnanıram ki, ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən, xalqlarımızın qardaşlığı və birliyindən güc alan Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bundan sonra da birgə səylərimizlə "Bir millət iki dövlət" prinsipinə uyğun olaraq daha da dərinləşəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə Respublikasına və xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 oktyabr 2024-cü il

## Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzanı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı general Sahir Şamşad Mirzanın səfərinin ölkələrimiz arasında güclü tərəfdaşlıq, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərinin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını deyib.

Prezident İlham Əliyev bu il qardaş Pakistana dövlət səfərinin çox uğurlu və məhsuldar keçdiyini vurğulayaraq, bunun dostluq və qardaşlıq münasibətlərimizin daha yüksək səviyyəyə qalxması işinə töhfə verdiyini bildirib.

Dövlətimizin başçısı ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində bir-birini həmişə dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini qeyd edib.

Əməkdaşlığımızın, o cümlədən ticarət sahəsində əlaqələrimizin əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini bildirən dövlətimizin başçısı deyib ki, özünün Pakistana dövlət səfəri zamanı Azərbaycanın bu ölkəyə 2 milyard ABŞ dolları məbləğində investisiya qoyuluşu imkanları barədə bəyanat verilib və bu sahədə sıx əməkdaşlıq hər iki tərəf üçün faydalı ola bilər.

Müdafiə sahəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev bir müddət əvvəl artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilən JF-17C təyyarələrinə baxdığını məmnunluqla xatırlayaraq, onların dünya səviyyəsində ən yaxşı təyyarələrdən olduğunu deyib. Dövlətimizin başçısı bu hadisənin müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlığımızın daha da gücləndirilməsi işinə xidmət etdiyini vurğulayıb. Prezident İlham Əliyev müdafiə sənayesi ilə bağlı genişhəcmli əməkdaşlıqda, o cümlədən istehsal, investisiya, texnologiyalar sahələrində uğurlu nəticələrin əldə olunacağına əminliyini bildirib.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin COP29 tədbirində iştirakının və gələn il ölkəmizə dövlət səfərinin Azərbaycanda səbirsizliklə gözlənildiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrinin Bakıda keçirəcəyi görüşlərin uğurlu olacağına ümidvar olduğunu bildirib.

Azərbaycan dövlətinin başçısı ilə görüşündən şərəf duyduğunu vurğulayan Sahir Şamşad Mirza Prezident İlham Əliyevin əfsanəvi şəxsiyyət olduğunu qeyd edib. Qonaq Pakistan Prezidenti Asif Əli Zərdari və Baş nazir Məhəmməd Şahbaz Şərifin salamlarını, Pakistan xalqının ən xoş arzularını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş edib.

Sahir Şamşad Mirza Azərbaycan Prezidentinin Pakistana dövlət səfərinin ikitərəfli münasibətlərimizin inkişafında tarixi təməl daşı olduğunu deyib.

Qonaq ölkəmizdə keçirilən prezident seçkilərində İlham Əliyevin, parlament seçkilərində isə hakim Yeni Azərbaycan Partiyasının qələbəsinin önəmini qeyd edərək vurğulayıb ki, dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin davamçısıdır. Sahir Şamşad Mirza qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin inkişafı fenomenal hadisə olmuşdur. Qonaq bu cür inkişafa, o cümlədən ümumi daxili məhsulun və əhalinin rifah halının artma templərinə heç bir ölkədə rast gəlinmədiyini deyib.

Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Vətən müharibəsində Azərbaycanın Qələbəsinin önəmini vurğulayaraq qeyd edib ki, ölkəmizin əsgər və zabitlər ilə bağlı baxışı, yerli istehsalın təşviqi, müharibədə müdafiə sənayesi kompleksi və güclü hərbi imkanlarla bərabər, müdafiənin bir növü olan qabaqlayıcı strategiyanın tətbiqi dünyaya çox aydın bir siqnal oldu ki, Azərbaycan hədəfə köklənib və irəliləyir.

Ölkəmizdə gedən inkişaf proseslərinin nümunə olduğunu qeyd edən qonaq Pakistanın Azərbaycan ilə qardaşlıq əlaqələrinin qarşılıqlı inama, səmimiliyə, əməkdaşlığa, mədəni əsaslara söykəndiyini deyib. O, qarşıdan gələn Zəfər Günü münasibətilə təbriklərini çatdırıb və bu bayramın Pakistanda da qeyd edildiyini məmnunluqla vurğulayıb.

Sahir Şamşad Mirza qeyd edib ki, Qəşmir məsələsində Azərbaycan Pakistanın yanında olduğu kimi, Ermənistan məsələsində də Pakistan Azərbaycanın yanındadır.

## Hərbi vəzifəlilər atıcı silahlardan praktiki atışlar icra ediblər

Cari ilin hazırlıq planına əsasən, hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı praktiki məşğələlərlə davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, toplanış günlərində günün nizam qaydalarına uyğun olaraq, hərbi vəzifəlilərə ordumuzun arsenalında olan müasir silah və hərbi texnikanın taktiki-texniki xüsusiyyətləri, eləcə də istifadə qaydaları öyrədilir.

Hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması məqsədilə onlarla səhra şəraitində müxtəlif məşğələlər keçirilir.

Toplanışın növbəti günündə hərbi vəzifəlilər atıcı silahlardan atış çalışmaları icra ediblər.

Qeyd edək ki, ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi təlim toplanışı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində həyata keçirilir.



# Azərbaycan-Pakistan hərbi əməkdaşlığının yeni perspektivləri müzakirə edilib







Oktyabrın 28-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdən əvvəl Pakistan nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin xatirələrini ehtiramla anıb.

Müdafiə Nazirliyində keçirilən rəsmi qarşılanma mərasimində fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.




General-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib. Nazir ölkələrimiz arasında hərbi əlaqələrin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Azərbaycan, Pakistan və Türkiyə arasında həyata keçirilən ikitərəfli və üçtərəfli hərbi əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

Müdafiə naziri Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti ilə bağlı Pakistan nümayəndə heyətini məlumatlandırıb.

General S.Ş.Mirza səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Azərbaycan-Pakistan hərbi əməkdaşlığının inkişaf etdirilməsində qarşılıqlı səfərlərin vacibliyini diqqətə çatdırıb. Qonaq 8 Noyabr - Zəfər Günü münasibətilə müdafiə nazirini təbrik edib.

Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Xəzər Fərhadovun da iştirak etdiyi görüşdə, həmçinin ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın yeni perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Daha sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Pakistan nümayəndə heyəti ilə görüşüb.

Baş Qərargahda keçirilən görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti müzakirə edilib və daha da möhkəmləndirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər barədə ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan-Pakistan-Türkiyə ikitərəfli və üçtərəfli birgə təlimlərinin intensivliyinin artırılmasının zəruriliyi qeyd edilib, eləcə də qarşılıqlı əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.



## Azərbaycanla Pakistan arasında regional əməkdaşlıq məsələləri müzakirə olunub

Oktyabrın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, ordu generalı Sahir Şamşad Mirza ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əlaqələrin daha da inkişaf etdirilməsi perspektivləri, eləcə də regional əməkdaşlıq məsələləri müzakirə olunub.

Həmçinin iki ölkə liderləri, eləcə də xarici işlər nazirləri arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin, siyasi məsləhətləşmə mexanizmlərinin, regional əməkdaşlıq platformalarının dostluq və qardaşlıq münasibətlərimizin daha yüksək səviyyəyə qalxması işinə töhfə verdiyi məmnunluqla qeyd edilib. Siyasi, iqtisadi, ticari, yüksək texnologiyalar, müdafiə, təhlükəsizlik və digər istiqamətlərdə əməkdaşlığın daha da inkişafının vacibliyi vurğulanıb.

Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi bir sıra regional və beynəlxalq təşkilatlar daxil olmaqla, çoxtərəfli formatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd edilib. Pakistanın 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüş zamanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində ölkə liderləri arasında görüşlər üçün əlavə imkan yaranacağı, bu tədbirin iki ölkə arasında əməkdaşlıq üçün xüsusi fürsət olduğu qeyd edilib.

Bununla yanaşı, görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Təlimlər əsgərlərin döyüş hazırlığını daha da təkmilləşdirir

Payız aylarıdı. Göy üzünü örtmüş qara buludlardan qopan narın yağış damcıları torpağı nəmləndirmişdi. Dağlardan əsən sərin meh havanın tezliklə soyuyacağından xəbər verirdi. Dağların qoynunda məskən salmış əsgərləri nə soyuq, nə yağış, nə də dumanlı hava qorxudur. Onlar həmişə olduğu kimi, günün nizam qaydalarına uyğun olaraq xidməti davam etdirirdilər. Əsgərlər sinif otaqlarında, sıra meydanında, təlim sahəsində komandirlərin nəzarəti altında hərbi bilik və bacarıqları mənimsəyirdilər. Keçirilən dərslərdə gənclərin müfəssəl biliyə yiyələnməsi üçün rəhbərlər məşğələləri səmərəli təşkil edir, öhdələrinə düşən vəzifələri icra edirdilər. İzlədikcə əmin olurduq ki, onların hər biri yüksək hazırlıqlı əsgər kimi formalaşır.

Birlik və birləşmələrdə bu istiqamətdə müntəzəm keçirilən dərs və təlimlərin əsas məqsədi bölmələrin döyüş hazırlığının daha da möhkəmləndirilməsi və şəxsi heyətin fərdi bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Hər bir komandirin də başlıca məqsədi tabeliyində olan əsgərlərin fərdi hazırlığının yüksək olmasıdır. Təlim sahəsində keçirilən dərsi izlədikcə görürdük ki, zabit Ramin Muradov bu amala sadiqdir. Tabeliyində olan əsgərlərə dərsin mövzusunu nəzəri və praktiki



öyrətmək üçün səylə çalışırdı. "Əsgərlərə təyin olunduqları ixtisaslara uyğun olaraq taktiki, sıra, ictimai-siyasi və fiziki hazırlıqdan səmərəli dərslər keçirilir. Onlara müxtəlif atıcı silahların taktiki-texniki xüsusiyyətlərini, təyinatını öyrədirik. Ümumilikdə, keçirilən bütün dərslər hərbi xidmətə gələn gənclərin bacarıqlı Vətən müdafiəçiləri kimi formalaşmağına xidmət edir. Komandanlıq bu dərslərin səmərəli təşkilini daim nəzarətdə saxlayır", - zabit R.Muradov dedi.

Əsgər İsmayıl İsmayılov bir neçə aydır ki, Ucar rayonundan ordu sıralarına çağırılıb. O, qısa müddət ərzində bir çox hərbi bilik və bacarıqlara yiyələndiyini bildirdi. "Keçirilən dərslərdə mənə təhkim olunan silah haqqında yetərincə öyrənmişəm. Artıq onun təyinatını, taktiki-texniki xüsusiyyətlərini bilirəm. Həmçinin natamam sökülüb-yığılmasını bacarıram. Hər birimiz qalib ordunun əsgəri olmaqla qürur duyur, rəşadətli ordumuza layiqli əsgərlər kimi formalaşmaq üçün səy göstəririk", - əsgər İ.İsmayılov dedi.

İsmayılın dediklərini silahdaşları da təsdiqlədi. Əsgərlər Firuz Əliyev, Mahir Mahmudov, Musa Veysov, Ruslan Adilov, İbrahim Məmmədov, Səbuhi Məmmədov, Orxan Zərgərov da dərs və təlimlərin yüksək səviyyədə təşkil olunduğunu vurğuladılar. Hərbi xidmət dövründə nümunəvi əsgərlər olacaqlarını, komandirlərin verdiyi əmrləri vaxtında və düzgün yerinə yetirəcəklərini bildirdilər. Vətən qarşısında övladlıq borcunu şərəflə yerinə yetirəcəklərini, yüksək döyüş hazırlığına malik əsgərlər kimi formalaşıb, Vətənimizin keşiyində qətiyyətlə dayanacaqlarını dedilər.

Əsgərləri izlədikcə və dediklərini dinlədikcə əmin olursan ki, onlar hərbi xidmətdə komandirlərinin öyrətdikləri bütün bilikləri bundan sonra da dərindən mənimsəyəcək, döyüş və mənəvi-psixoloji hazırlıqlarını daim artıracaqlar.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalında qalmış torpaqlarımızı azad etdi. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Bu gün bir daha şahidi olduq ki, şanlı Zəfərimizdən ilhamlanan qələbə ruhlu əsgərlərimiz üzərlərinə düşən böyük məsuliyyəti dərk edir, ərazi bütövlüyümüzə yönəlmiş istənilən təhdidin qarşısını almaq üçün yüksək döyüş hazırlığına yiyələnirlər. Belə təlimlər də onların döyüş hazırlığını daha da təkmilləşdirir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Bakıda Azərbaycanın NATO-nun Sülh naminə Tərəfdaşlıq Çərçivə Sənədinə qoşulmasının 30 illiyi münasibətilə dəyirmi masa keçirilib

Oktyabrın 28-də Bakıda ölkəmizin NATO-nun Sülh naminə Tərəfdaşlıq Çərçivə Sənədinə qoşulmasının 30 illiyi münasibətilə "Enerji təhlükəsizliyi və iqlim dəyişikliyi üzrə Azərbaycan-NATO" mövzusunda dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə NATO-nun İnnovasiya, Hibrid və Kiberməsələlər üzrə bölməsinin İqlim və enerji təhlükəsizliyi sektorunun nümayəndəsi, təşkilata üzv və tərəfdaş ölkələrdən, o cümlədən ölkəmizin aidiyyəti qurumlarından müvafiq sahədə ixtisaslaşmış ekspertlər və akademik dairələrin nümayəndələri iştirak ediblər.



Xarici İşlər Nazirliyinin Hərbi-siyasi məsələlər idarəsinin rəis müavini-şöbə müdiri Anar Mütəllimov tədbirdə açılış nitqi ilə çıxış edib.

Sonra enerji təhlükəsizliyi və Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, mühüm enerji infrastrukturuna mümkün hədələr, risklər və onun mühafizəsi, iqlim dəyişikliyi və enerji təhlükəsizliyi arasında əlaqə mövzuları ətrafında fikir mübadiləsi aparılıb.



Tədbirdə Azərbaycanın etibarlı tərəfdaş və enerji təchizatçısı kimi rolu, həmçinin iqlim dəyişikliyi ilə mübarizə və yaşıl enerjiyə keçid istiqamətində fəaliyyəti, o cümlədən COP29 tədbirinə ev sahibliyi xüsusi vurğulanıb.

*Reportaj*

# Vətəni qorumaq ümdə vəzifədir



Hər günü bir ömrə bərabər olan 44 günlük Vətən müharibəsinin Böyük Qələbə ilə başa çatmasının artıq 4-cü ildönümü astanasındayıq. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhə boyu törətdiyi genişmiqyaslı təxribat nəticəsində hərbi təyinatlı obyektlərimiz və yaşayış məntəqələrimiz müxtəlif çaplı silah və iriçaplı minaatan, artilleriya qurğularından istifadə olunmaqla atəşə tutuldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin səhər saatlarında ictimaiyyətə müraciətində düşmən təxribatları nəticəsində hərbi qulluqçularımız və mülki insanlarımızın qətlə yetirildiyi qeyd edildi.

Ali Baş Komandanın hər bir əmrinə hazır olan ordumuzun şəxsi heyəti düşmən təxribatının qarşısının alınması və mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün irəli atıldı. İlk gündən cəbhədə düşmənin uzun illər ərzində quraşdırdığı maneələri və müxtəlif tipli müdafiə sədlərini məharətlə yarmağı bacaran Azərbaycan əsgəri inamla irəliləyir, hər gün zəfər gününə bir addım da yaxınlaşırdı. İllərdir işğalda qalmış torpaqlarımız, darmadağın olunmuş evlərin qalıqları düşmənə olan nifrəti daha da artıran amillərdən idi ki, ordumuzun gücü və qisas hissi qarşısında Ermənistan silahlı birləşmələri böyük itkilər verərək geri çəkilirdi. Silahlanmamızda olan müasir standartlara uyğun döyüş vasitələri və hərbi texni-



kalar da düşmənin qorxulu yuxusuna çevrilmişdi. Tarixi qələbəni döyüş meydanında yazanlar Ali Baş Komandanına və qədirbilən xalqına daim sadiq olan Azərbaycan əsgəri oldu. Bu gün də öz qəhrəman sələflərinin Vətən sevgisini yaşadan oğullarımız gecə-gündüz, isti-soyuq demədən öz yurduna övladlıq borcunu layiqincə və ləyaqətlə ödəyirlər.

Vətən müdafiəçilərimizin yanındayıq. Leytenant Şahlar Hüseynov Vətənin keşiyində duran əsgərlərimizin komandirlərindəndir. Ötən ilin antiterror əməliyyatında əsgər kimi xidmət etsə də, bu gün ordu sıralarında xidmət edən zabitlərimizdən biridir. Gənc zabit söhbət əsnasında qeyd edir ki, keşiyində durduqları doğma yurd yerlərinin relyefindən, iqlimindən asılı olmayaraq Azərbaycan əsgəri daim ayıq-sayıqdır və xidmətini layiqincə təşkil edir. "Mövzu xalqın firavanlığı, Vətənin bütövlüyüdürsə, məsuliyyətin daha da artır. Bunun da başlıca şərti yüksək hərbi intizam, döyüş ruhu və vətənpərvərlikdir. 44 günlük haqq savaşımızda, antiterror və digər əməliyyatlarda Azərbaycan əsgəri Ali Baş Komandanın qarşıya qoyduğu tapşırıqları yüksək peşəkarlıqla icra etdi. Bütün dünya şanlı ordumuzun gücünü gördü və bu gün də bu reallığı qəbul etməkdən başqa yolu yoxdur.

Azərbaycan əsgəri üzərində gəzdiyi bu torpağın müqəddəsliyini, onun hər qarışı uğrunda şiddətli döyüşlərin getdiyini dərk edir. Vətən, xalq, Ali Baş Komandan sevgisi ilə üzərinə düşən müqəddəs missiyanı yerinə yetirən əsgərlərimiz dərk edirlər ki, tarixi torpaqlarımız bizə əcdadlarımızdan qalmış ən ali əmanətdir. Bizimsə komandir olaraq əsas vəzifəmiz şəxsi heyəti əsl döyüşçü kimi formalaşdırıb, onları Vətənə sadiq müdafiəçilər olaraq yetişdirməkdir".

Əsgər Eşqin Muxtarov əslən Kəlbəcər rayonundandır. "Hərbi xidmət qəlbi və ruhu ilə Vətəninə bağlı olan hər bir kəsin vətəndaşlıq və övladlıq borcudur. Bu torpaqda böyüyüb boya-başa çatmışıqsa, onun bütövlüyünü qorumaq ən ümdə vəzifəmizdir. Qalib ordunun hərbi mundirini daşımaq da, Vətəni qorumaq da fəxarət dolu bir hissdir. Azərbaycan əsgəri ulu babalarından miras qalan torpaqları hər zaman qoruyub, onun varlığı üçün ölümə belə gedib. Vətəni sevmək onun havasını, suyunu, daşını sevməkdir. Vətəni sevmək onun bayrağını daim yüksəkdə dalğalandırmaqdır. Biz cismimizlə də, ruhumuzla da bu Vətənə bağlıyıq. Və ən əsası bizim Vətən sevgimiz həyatımızın mənasıdır. Çünki Vətən anadır, onu sevmək və qorumaq gərək", - deyə əsgər bildirir.

Rəvan Abdullazadə Vətənin keşiyində dayanmağın şərəfli iş olduğunu vurğulayır və söhbətinə davam edir. "2020-ci il sentyabrın 27-si Ali Baş Komandanın rəhbərliyi və qədirbilən xalqımızın dəstəyi ilə ordumuzun yazdığı tarixi günlərin təqvimidir. 44 günlük Vətən müharibəsi zamanı dünyada yaşayan 50 milyondan çox soydaşımız qəlbən və ruhən haqq savaşımızın iştirakçısıydı. Yaşından, vəzifəsindən və yaşadığı yerdən asılı olmayaraq dünya azərbaycanlılarının qəlbi cəbhədə əsgərlərimizlə birgə döyünürdü. Mən də hadisələri ailəmlə birlikdə izləyirdim. Azərbaycan əsgərinin yazdığı tarixi yaşatmaq, Vətən torpaqlarını qorumaq bu gün bizə həvalə olunub. Həmin tarixin bir parçası olmasam da, qəhrəman oğullarımızın işğaldan azad etdiyi torpaqlarımızda xidmət etməyimlə qürur duyuram. Üzərimə düşən vəzifənin məsuliyyətini də dərindən dərk edir, xidmətimi layiqincə təşkil etməyim üçün əlimdən gələni əsirgəmirəm".

Əsgərlər Cahandar Qasımov və Şamil Hacıyev də bu şərəfli missiyanın Vətəni qorumağın bir parçası olmağın bəxş etdiyi qürurdan danışırlar. Bugünkü firavanlığımızın təminatçısı olan əsgərlərimizlə həmsöhbət olmaq məndə xoş duyğular oyadır. Və bir daha əmin oluram ki, Vətən qarşısında övladlıq və vətəndaşlıq borcunu ödəməyin necə böyük məsuliyyət olmasını dərindən dərk edən gənc əsgərlərimizin yurdumuzun keşiyində ayıq-sayıq dayandığına inamımız sonsuzdur. Onlarla tanış olmaq və oxucularımıza tanıtmaq bizim üzərimizə düşür. Biz də hər zaman Vətən təəssübkeşi övladlarla tanış olduğumuz üçün sevinirik. Sevinirik ki, Vətən, xalq sevgisini özündə birləşdirən əsgərlərimiz bu gün torpaqlarımızın keşiyində dayanmağın və bu məsuliyyətin ümdəliyini dərindən dərk edirlər. Onların hər biri şanlı ordumuzun yazdığı zəfər tarixi ilə bağlı geniş məlumatlıdırlar. Öz tarixini, milli mənsubiyyətini,



mədəniyyətini sevən kəs Vətənini sevən kəsdir. Bu gün tanış olduğumuz məğrur oğullarımız da öz qəhrəman soydaşlarının yazdığı tarixi ləyaqətlə qoruyacaqlar. Buna heç birimizin şübhəsi yoxdur. Çünki Vətəni qorumaq ona qəlbən bağlı olan hər kəs üçün ən ümdə vəzifədir. Bununla da Vətən müdafiəçiləri ilə xoş düşüncələr və təəssüratlar ağuşunda sağollaşır, onlara xidmətlərində uğurlar arzulayırıq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# İkinci Qarabağ müharibəsi: tarixi Zəfər Günü xatirələrdə

*Dövlətçiliklə bağlı olan hadisələr heç zaman unudulmur, tarixdə yaşayır, xatirələrdə yaşadılır. 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi Azərbaycan mətbuatını, bu sıradan "Azərbaycan Ordusu" qəzetini də döyüşlərə səfərbər etmişdi. Vətən müharibəsində "Azərbaycan Ordusu" döyüşlərdən yazdı, döyüşənlərdən yazdı, mövqe qələbələrindən yazdı. Qəzetdə döyüşənlərin döyüşlər haqqında təəssüratlarından informasiyalar, zarisovkalar, məqalələr dərc olundu. Qəzetin əməkdaşlarının üç istiqamətdə hazırladığı səyyar saylar döyüşlər getdiyi müddətdə çap olundu. "Sən qalib gələcəksən!", "Qələbə uğrunda", "Qalibiyyət döyüşü" İkinci Qarabağ müharibəsində döyüşləri tarixləşdirirdi. Müharibədə Murovdağ istiqamətində zabitlərdən biri demişdi ki, növbəti döyüşə əvvəlki döyüşün qələbə ruhu ilə gedirdik, yəni, döyüşçülər döyüşə dərc olunmuş məqalələrin uğurlamaları ilə gedirdi. Bu uğurlama "Azərbaycan Ordusu"nun uğurlaması idi...*

*İkinci Qarabağ müharibəsinin döyüşləri tarixləşdi, tarixləşənlər tarixi döyüşlərin iştirakçılarının yaddaşlarındadı...*

*Tarixi Zəfər qazanıldı. Tarixi Zəfərdən dörd il keçir. Döyüşlərin iştirakçısı olmuş hərbi qulluqçular Zəfər Gününü böyük qürurla xatırlayırlar:*



**Polkovnik-leytenant Rauf Zeynalov:**

- Xalq inanırdı ki, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlayacaq. Xatırlayıram ki, əsgərlərdən biri soruşmuşdu: Torpaqlarımızı işğaldan azad etmək üçün döyüşlər nə vaxt başlayacaq? 2020-ci ilin sentyabrına kimi belə sual bütün hərbi hissələrdə verilirdi, hər yerdə cavab eyni olurdu: Ali Baş Komandan döyüş əmri verəndə. Azərbaycan Ordusu bu əmri yüksək döyüş əzmi, qələbə ruhu ilə gözləyirdi. Əmr 2020-ci il sentyabrın 27-də verildi; düşmənin hücumunun qarşısını qətiyyətlə alan ordu hissələrimiz əks-hücuma keçdi. Bu əks-hücum İkinci Qarabağ müharibəsinin başlanğıcı oldu...

İkinci Qarabağ müharibəsinin başlanğıcından sonuna kimi düşmən özülü olmayan ümidlərə, keçilməzliyinə inandığı istehkam və sədlərinə, havadarlarının köməyinə güvənib müqavimət göstərirdi. Azərbaycan əsgəri düşmənin işğal müddətində yaratdığı, yarada-yarada möhkəmləndirdiyi, möhkəmləndirməklə yeniləşdirdiyi sədləri darmadağın etdi.

Azərbaycançılığın erməniliklə ədalətli müharibəsinin döyüşləri Şuşanın həndəvərlərinə çatırdı...

Artilleriyaçılarımız döyüşən ordumuza yüksək dəqiqliklə dəstək verirdilər. Düşmənin neçə-neçə komanda və idarəetmə məntəqəsi, döyüşə hazırlanmış qruplaşmaları, döyüş maşınları karvanı, canlı qüvvəsi, ... darmadağın edilirdi.

**Mayor Elşən Veysəlli:**

- Düşmən güman edirdi ki, Azərbaycan Ordusunun hissələri Şuşaya Qırmızı Bazar qəsəbəsi tərəfdən yaxınlaşacaq. Ona görə əsas qüvvələrini bu səmtə cəmləmişdi. Döyüşən ordu hissələrimizin döyüşləri Şuşakənd, oradan da Şuşa istiqamətində olacaqdı. Laçın istiqamətindən də hücum ola biləcəyini ehtimal edən düşmən qüvvələrinin bir hissəsini də bu istiqamətdə yerləşdirmişdi. Düşmənin fəal müqavimət göstərməsinə imkan verilmədi.

Komandanlıq miqyasına, planına, hücumun mərhələlərinə və ardıcıllığına görə düşmənin güman edə bilməyəcəyi qərar qəbul edildi: Şuşaya meşələrdən yeni yol açılsın. Böyük Tağlar kəndindən meşələrlə Çanaxçı və Sığnax kəndlərinə, Şuşa şəhərinə tərəf böyük bir məsafə yola çevrildi - buldozerlərlə və əllə! Döyüşlər gedə-gedə! Mühəndis-istehkamçılarımız dar dağ cığırını döyüş texnikalarının hərəkət edə biləcəyi meşə yoluna çevirdilər. Bölmələrimiz artilleriya qurğularını Çanaxçı ətrafında cəmləşdirə bildi. Piyadalarımız qətiyyət ilğımına döndü!..

Döyüşçülərimiz Şuşanın dağlarından keçməklə Şuşaya yaxınlaşdılar. İkinci Qarabağ müharibəsinin həlledici döyüşləri burada baş tutdu. Döyüşənlər də, xalq da inanırdı və əmin idilər ki, bu döyüşlər də qələbə ilə nəticələnəcək,



müharibənin sonunu yaxınlaşdıracaq...

"Natsionalnaya Oborona" jurnalında Şuşa döyüşləri haqqında bir məqalə dərc olunmuşdu: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir: Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə də şəhidini əldən buraxırdı. Nəfəs almadan Şuşaya çıxdılar..." ...Bu məqalə Şuşa uğrunda döyüşlərin hərbi təsviridi. Rus jurnalisti gerçəkliyi yazıb...

**Mayor Vaqif Mustafayev:**

- Xocalıyla Xocavəndin arasından Şuşaya qalxan yolun solunda üst-üstə qoyulmuş üç iri daş var. İkinci Qarabağ müharibəsində buralar da meşəlik olub. Noyabrın 6-da komandirin döyüş əmri ilə üç döyüşçümüz buradan keçib düşmən mövqeyinə yaxınlaşmalı idi. Düşmən mövqeyinə yaxınlaşanda qarşıdan atəşə tutulublar. Atışıblar. Solda da düşmən varmış, sağda da, qarşıda da. Bir anlığa baxışları qoşalaşıb, mühasirəni sürətli həmlə ilə yara bilərik. Hansı istiqamətə getməyi də baxışları müəyyənləşdirib. Atışa-atışa Şuşa istiqamətinə irəliləyiblər. Mühasirədən çıxa-çıxda döyüşçülərdən biri yaralanıb. Döyüşə-döyüşə yaralanmış döyüşçünü də döyüşdən çıxardıblar, düşmənin sırasını seyrəldə-seyrəldə mühasirəni yarıblar. Son anda o iki döyüşçü də şəhid olub. Zəfərdən sonra orada igidliyin nişanəsi olan həmin üç iri daş üç şəhid döyüşçünün xatirəsinin nişanəsidi...

Noyabrın 8-i Zəfər Günü oldu...

**Mayor Namiq Əzizov:**

- Müharibə başlayanda bizim hərbi hissə də döyüşlərə cəlb olundu. Döyüş əmri ötəri bir həyəcan yaratmışdı. Həyəcan ilk güllələr atılandan sonra sovuşdu. Biz də qətiyyətlə döyüşürdük. Komandirimiz əsgərlərə deyirdi ki, siz qəhrəman olmaq üçün döyüşmürsünüz, ancaq qəhrəmanlıqla döyüşün. Qələbədən sonra bu döyüşləri qürurla xatırlayacaqsınız. Yaralanan döyüşçülərimiz müalicəyə getmək istəmirdilər. Yaralılardan biri qəhərlə demişdi ki, komandir, məni yaralarım incitmir, döyüşlərdən uzaqlaşacağım incidir. Döyüşçülərimizin hamısı son döyüşün döyüşçüsü olmaq istəyirdilər...

Vətən müharibəsi döyüşçüləri doğmalaşdırmışdı. Əsgərlərimiz cəbrayıllı döyüşçüyə görə Cəbrayılda, ağdamlı döyüşçüyə görə Ağdamda, kəlbəcərli döyüşçüyə görə Kəlbəcərdə döyüşmək istəyirdilər, yəni, döyüşçülərin hamısı bir-birinin ruh qardaşı idi. Əsgər Sabir Qasımov cəbrayıllı əsgərə demişdi ki, Cəbrayıl işğaldan azad ediləndə sənin ailəni mənim adımdan atam sevindirəcək. Deyəcək ki, döyüşlərin qalibi olan oğlunuzun döyüşçü yoldaşları belə niyyət eləyiblərmiş. Döyüşçülərimiz noyabrın 8-ni bu ovqatla qarşıladılar...

**Polkovnik-leytenant Rauf Zeynalov:**

- Dörd döyüşçünü kəşfiyyata göndərmək istəyən taqım komandiri kimin getmək istədiyini soruşanda taqımın əsgərlərinin hamısı qarşıya çıxıb. Seçim etməkdə çətinlik çəkən komandir hamısına Vətənin adından təşəkkür edib, "Qələbə sizin bu döyüş əzminizdədi, qələbə ruhunuzdadı", - deyib. Taqım komandiri üç döyüşçü seçib, dördüncü döyüşçü özü olub. Bu da döyüşçülərin döyüş əzmini kükrədib, tapşırıq yerinə yetirilib, kəşfiyyat məlumatları əsasında dəqiqləşdirmələrdən sonra başlayan əməliyyat qələbə ilə nəticələnib...

**Mayor Namiq Əzizov:**

- Ermənistan oktyabrın 1-də döyüşlərdən uzaqda yerləşən



Gəncə şəhərinə ballistik raketlər atmışdı. Sonra bu şəhərə daha dörd dəfə belə raketlər atılmışdı. Neçə-neçə bina dağıldı, ciddi xəsarət aldı. Oktyabrın 7-də beşinci raket hücumu zamanı 16 nəfər şəhid oldu, 55 nəfər yaralandı. Hücumlarda şəhərin infrastrukturuna, yaşayış binalarına xeyli ziyan dəydi. Bu vəhşilik ordumuzun şəxsi heyətinin döyüş əzmini də yüksəltdi, qələbə ruhunu da.

**Mayor Vaqif Mustafayev:**

- Gəncəyə ballistik raketlər atılanda yaxın qohumu şəhid olan zabit dəfnə getməyib, "Son döyüşə kimi əsgərlərimizdən uzaq düşmərəm. Dəfni mənsiz də təşkil edəcəklər. Qələbədən sonra məzarını ziyarət edəndə ruhu qələbə qazanmış döyüşçülərin sırasında olmuş əzizini qınamayacaq", - deyib. Yəni, İkinci Qarabağ müharibəsində hərbi qulluqçularımızın döyüş əzmi, qələbə ruhu hər birinin daxili dünyasının işığına dönmüşdü. O işıq xatirələr, təəssüratlar formatında indi hərbi xidmətdə əsgərlərin ruhundadı...

**Polkovnik-leytenant Rauf Zeynalov:**

- Müharibədə eşitdiyimiz qəhrəmanlıqlar döyüşçülərin döyüş əzmini ovxarlayırdı.



Baş leytenant Elvin Şükürlünün şücaəti Azərbaycan Ordusunun zabitinin mənəvi kamilliyinin nümunəsi kimi tarixləşdi. Baş leytenant Elvin Şükürlünün xidmət etdiyi hərbi hissə Murovdağ istiqamətində döyüşürdü. Əsgər Samir Qasımovun döyüşdən əvvəl dedikləri hamının döyüş əzmini, qələbə ruhunu coşdurmuşdu: "Şəhid olsam, qisasımı alsanız, ruhum sizə alqışçı olar...". Elvin şəhid olmuş əsgərin qisasını alacağına and içibmiş. Dan yeri söküləndə ehtiyatla düşmənin mövqeyinə düşüb. Qarşısına çıxan düşməni səssizcə zərərsizləşdirib, sonra yaxınlaşan başqa düşməni, sonra üçüncünü, dördüncünü ... Məhv etmək istədiyi beşinci düşmən avtomatın tətiyini sıxmağa macal tapıb.

İkinci Qarabağ müharibəsi tarixin məhkəməsi, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər tarixin hökmü oldu...

**Mayor Vaqif Mustafayev:**

- Azərbaycanın ərazi bütövlüyünün tam bərpası ilə nəticələnən bu ədalətli müharibə erməniliyin mahiyyətini də göstərdi, işğalçılığın son aqibətinin nə ilə nəticələnəcəyini də. Bu baxımdan Vətən müharibəsi tarixi müharibə oldu.

**Mayor Elşən Veysəlli:**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bir kəlamını xatırlayıram: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq".

*İkinci Qarabağ müharibəsinin iştirakçıları dörd ilin o üzündə qalan tarixi böyük qürurla, dövlətə, dövlətçiliyə böyük sədaqətlə xatırlayırlar, şəhidləri ehtiramla anırlar. Bu xatırlamalar həm sevgidi, həm müharibənin başlanğıcından sonunu görməyə qadir olan bir xalqın inamının zərrəsidi, həm də ordunun gücünü ifadə edən fikirlərdi...*

*Anmaq yaşatmaqdır, yaşatmaq - tarixləşdirmək...*

**(Ardı 5-ci səhifədə)**

# İkinci Qarabağ müharibəsi: tarixi Zəfər Günü xatirələrdə

**(Əvvəli 4-cü səhifədə)**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gerçəkliyin ifadəsi olan "Azərbaycan xalqı, Azərbaycan dövləti heç zaman Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməz" kəlamını unudan Ermənistan yeni ərazilər işğal etmək niyyəti ilə müxtəlif miqyaslı təxribatlar törətmək istəyirdi. Belə işğalçılıq niyyətlərinin qarşısı alınan döyüşlərdə düşmən duyurdu ki, Azərbaycan Ordusu yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir. Duyurdu, ancaq yenə işğalçılıq niyyətindən əl çəkmirdi. 2020-ci il sentyabrın 27-də düşmənin hücumunun qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu Ali Baş Komandanın əks-hücum əmrini qələbələrə yönəltdi, ilkin qələbələr qazandı. Düşmən geri çəkilməyə məcbur oldu. Ordumuz döyüşə-döyüşə Böyük Qələbəyə yaxınlaşırdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində dedi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik"...*

*Həmin vaxtlarda orta məktəbdə oxuyan şagirdlər indi hərbi xidmətdədirlər. Onlar da müharibəni böyük inamla, sevgi ilə izləyiblər. Bu gün əsgər kimi 2020-ci ilin 8 Noyabrını da Vətənə sevgi ilə, orduya ehtiramla tarixi Zəfərin qüruru ilə xatırlayırlar...*




**Leytenant Kamil İbrahimzadə:**

- İkinci Qarabağ müharibəsi xalqımızın tarixində dövlətçilik mübarizəsinin müharibəsi kimi xatırlanacaq. Həm də tarixi Zəfərlə tamamlandığı üçün qürurla xatırlanacaq. Bu müharibədə qazanılan böyük qələbə həm Azərbaycanın ərazilərini işğaldan azad etdi, həm də dünya dövlətləri rəsmi, qeyri-rəsmi etiraf etdilər ki, Azərbaycanın qazandığı qələbə işğalçılıq üzərində qazanılan qələbədir. Əsgərlərimiz İkinci Qarabağ müharibəsində məktəbli idilər, ancaq döyüşlər də, qazanılan tarixi Zəfər də onların yaddaşında böyük qürurla yaşadılır...

**Əsgər Həsən Museyibzadə:**

- 2020-ci ildə 14 yaşımız vardı. Müharibənin başladığını eşidəndə biz də döyüşlərə getmək istədik. Aparmadılar, dedilər ki, uşaqlar döyüşə gedə bilməzlər. Səhərisi gün tarix müəllimimiz müharibələrdən, ədalətli müharibələrdən, Azərbaycanın ədalətli müharibəsindən, qazanılan ilk döyüş uğurlarından danışdı. Sevindik - ordumuz qələbələr qazanırdı, bir az sıxıntılar yaşadıq - döyüşənlərin sırasında deyildik. Biz müharibənin ilk gününü də, müharibənin nə olduğunu dərk etdiyimiz ilk dərsi də heç zaman unutmayacağıq. 44 gün bu dərsin ovqatı ilə yaşadıq. Hər dərs günümüz müharibədə qazanılan qələbələrin ovqatı ilə keçirdi. Döyüşən ordumuz bizə dərslərdən əlavə dönməz vətənpərvərlik dərsi keçirdi. Hamımız özümüzü döyüşlərdə hiss edirdik. Ordu hissələrimizin düşmənin istehkam və sədlərini dağıtmasının qürurunu yaşamaq necə xoş idi! Biz də qürurlanırdıq ki, mövqe qələbələri ordumuzu Böyük Qələbəyə aparır. PUA-larımız hücum edəndə düşmənin necə qaçdığını görəndə işğalın sonuna az qaldığına əmin olurduq...

Noyabrın 8-də ordumuz Şuşanı işğaldan azad etdi. Zəfər günü qürurumuzun günü oldu. Noyabrın 10-da Vətən müharibəsi başa çatdı. Vətən müharibəsində şəhid olanlarımızı biz də ehtiramla yad edirik. Biz də Vətəni onlar kimi sevməyi özümüzə mənəvi borc bilirik...

**Əsgər İsmayıl Mustafayev:**

- Komandirimiz danışırdı ki, Vətən müharibəsində iki qardaş da döyüşüb. Nazirlə Tacir Allahverdiyevlər. Əkiz qardaş imişlər. 19 yaşları varmış. Ağdamın Güllü kəndində anadan olublarmış. Hərbi xidmətə eyni gündə gediblərmiş, eyni hərbi hissədə xidmət edirlərmiş. Oktyabrın sonlarında Füzuli istiqamətində döyüşürlərmiş. Nazir ayağından, Tacir qolundan yaralanıblar. Birinin yaralanmasından o birinin xəbəri olmayıb. Yaraları yüngül olduğuna görə yenə döyüşüblər. Nazir sağ cinahda döyüşürmüş, Tacir sol cinahda. Sağda döyüş gərginləşəndə Tacirin ürəyi sıxılırmış, solda döyüş gərginləşəndə - Nazirin. Döyüşə-döyüşə düşməni sıxışdıranların sırasında onlar da olublar. Döyüş bitəndə yenə qolları bir-birinin kürəyində çarpazlaşacaqdı...

Snayper gülləsi Nazirin ürəyinin yaxınlığına dəyib. Qanı dayandırmaq mümkün olmayıb. Qardaşının yaralandığını Tacir də görüb. Üzünü qardaşının son nəfəsinə söykəyib, şəhid qardaşının sinəsinə iki damla yaş düşüb. Tacir dikəlib, döyüşmək üçün düşmənlərə tərəf gedib. Səsləyiblər, dayanmayıb. Qarşıda dörd-beş düşmən əsgərini görəndə ayaq saxlayıb, nəfəs dərmədən atəş açıb. Ermənilərdən üçü ölüb, o birinin atdığı güllə Tacirə dəyib. Tacir də şəhid olub...

**Əsgər Heydər Quliyev:**

- Vətən müharibəsinin qəhrəmanlıqları haqqında müəllimlərimizdən də eşidirdik, videolentlərimizdən də, televiziyadan da. Hamımız qəhrəmanları gerçək qəhrəmanlar kimi sevirdik. Tanımadığımız o qəhrəmanların hamısı hamımızın əzizi idi. Yoldaşlarımızdan biri ədəbiyyat müəllimimizdən soruşdu ki, xalqın sevdiyi qəhrəmanlar indi də olacaqmı? Müəllimimiz Birinci Qarabağ müharibəsinin qəhrəmanı olmuş Yusif Mirzəyevi, Əlif Hacıyevi, Tofiq Hüseynovu, Vəzir Orucovu, daha kimləri, kimləri xatırlatdı. Sonda dedi ki, Vətən naminə bütün döyüşlərdə qəhrəmanlar olub, həmişə də olacaq. Bu, Vətənin müqəddəsliyindən yaranır.

Mən başqa qəhrəmanları xatırlayıram. Zirəddinlə Kəramət hərbi xidmətə eyni gündə gəlibmişlər. Eyni taqımda xidmət edirlərmiş, çarpayıları yan-yanaymış. Dürüst dostuymuşlar. Yuxuları dolaşıq düşəndə pıçıltıyla Başlıbel faciəsindən danışırmışlar, Qaradağlı, Meşəli, Ağdaban, Xocalı faciəsindən danışırmışlar. İşğalın sonlandırılması üçün müharibənin başlamasını istəyirlərmiş...

Müharibə başlayanda onların hərbi hissəsi Füzuli istiqamətində döyüşürmüş. Komandirləri ikisinə və daha iki döyüşçüyə döyüşdə sol tərəfdən düşmənin diqqətini yayındırmaq əmri verib. Əmri yerinə yetirmək üçün uyğun mövqe seçib döyüşürlərmiş. Kəramətin avtomatı qəflətən kiriyib. Zirəddin ona sarı sürünüb. Sürünə-sürünə onu səsləyib. Zirəddinin qəlbini gümanlar didişdirib. Bir də səsləyib. Güllə səsləri içində səssizlikdən ürəyi sıxılıb. Güllələr papağını sıyırıb. Dizi üstə sürünə-sürünə dostuna yetişib...

Dostunun gəlişini duyan Kəramət azca dikəlib. Elə bil gözlərinin işığı artıb. Dirsəklənmək istəyib. Ağrılar imkan verməyib. Canını dişinə sıxıb döyüşlər gedən tərəfə baxıb, sonra - Zirəddinə sarı. Zirəddin bir az da yaxınlaşanda gözləri torlaşıb, ürəyinə snayper gülləsi dəyib...

**Əsgər Ərşad Manafov:**

- Kəndimiz döyüşlərdən uzaq olsa da, camaat özünü döyüşlərdə hiss edirdi. Hamı döyüşləri izləyə-izləyə, televiziyadan müharibə xəbərlərini dinləyə-dinləyə ordumuzun qazanacağı Qələbəni gözləyirdi. O vaxtlarda nənəmdən eşitdiyim bir fikir indi də yadımdadı: Nə gecəmiz gecədi, nə gündüzümüz gündüz. Hamı Qələbə gözləyirdi. Biz şagirdlər də hamının sırasında. Xatırlayıram ki, oktyabrın 4-də Cəbrayıl şəhəri işğaldan azad edildi. Həmin axşam məktəbimizin yuxarı sinif şagirdləri böyük bir atəşfəşanlıq düzəltdilər. Bu coşqunun sevincinə Birinci Qarabağ müharibəsinin iştirakçılarından da gələnlər olmuşdu. Onda eşitdiyim bir fikri heç zaman unutmaram: Xalqımız bu gün üçün 28 il narahat günlər, səksəkəli gecələr yaşayıb. Bu narahatlığı ordumuzun qazandığı Zəfər sonlandıracaq. Belə də oldu. Ordumuz tarixi Zəfər qazandı. O vaxtdan dörd il keçir.

**Əsgər Heydər Quliyev:**

- Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit Füzuli Rzaquliyev döyüşlərə oğlu ilə birlikdə gedib. Ataoğul döyüş yoldaşı olub. Biri digərinə görə daha qətiyyətlə döyüşüb, hər ikisi - Vətənə görə. Bunu səhərisi sinif yoldaşlarıma da dedim. Müəllimimiz həmin gün bizə Vətən müharibəsinin müqəddəsliyindən də danışdı, bu müqəddəsliyi Ali Baş Komandanın sərkərdəliyi ilə qələbəyə aparan belə döyüşçülərdən də.

**Leytenant Orxan Hüseynquliyev:**

- 2020-ci il 8 Noyabr Zəfəri həmişə bu qürurla xatırlanacaq.

**Əsgər Yəhya Hümbətli:**

- Televiziyadan eşitdik ki, noyabrın 10-da üçtərəfli bəyanat imzalanıb. Müəllimimiz dedi ki, bu Bəyanat Azərbaycanın qalibiyyət, Ermənistanın məğlubiyyət sənədi oldu. Ermənistanın hərbi qüvvələri Kəlbəcərdən, Ağdamdan, Laçından döyüşlər olmadan çıxdı. Ermənistanın Xankəndidə, Xocalıda, Əsgəranda qalan qüvvələri və Ermənistandan idarə edilən silahlı qruplaşmaları yenə təxribatlar törədir, işğaldan azad edilmiş ərazilərimizi minalayırdılar...

**Əsgər Ərşad Manaflı:**

- Hərbi hazırlıq müəllimimiz demişdi ki, o minalar Ermənistanda istehsal edilən minalar olub və üçtərəfli bəyanat imzalanandan sonra istehsal edilib. Azərbaycana necə gətirilirmiş, necə basdırılırmış, Azərbaycan Ordusu bunun da qarşısını alacaq, - müəllimimizin əminliyi bizə inam oldu, inandıq ki, bunun da sonu yoxdur.

**Əsgər Heydər Quliyev:**

- 2023-cü il sentyabrın 19-da ordumuz Ali Baş Komandanın əmri ilə antiterror əməliyyatına başladı, qısa müddətdə qələbə qazanıldı, düşmən qüvvələrinin qalıqları da, qeyri-qanuni dəstələri də təslim oldu. Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi.

**Əsgər Rəvan Qaçayev:**

- Bu qələbə 2020-ci il noyabrın 8-də qazanılan tarixi Zəfərin davamı oldu, işğalçılığa son qoyuldu. 2023-cü il noyabrın 8-də Xankəndidə Azərbaycan Ordusunun hərbi paradı keçirildi. Son on illərin hərbi qarşıdurmasını Azərbaycan Ordusu hərbi-siyasi yolla sonlandırdı...

**Əsgər İsmayıl Musayev:**

- Ordunun şəxsi heyəti həmişə xalqın əzizi olub. Müharibədə oğlu döyüşlərdə olan atanın qürurunu da unutmuram, qonşuların əsgər atasına ehtiramını da. Atam deyirdi ki, hər yerdə belədi, müharibə insanları doğmalaşdırdı.

**Əsgər Yəhya Hümbətov:**

- Həmin paradı biz də izlədik. O qüruru yaşayanda tarixi Zəfəri yenidən yaşayırıq, tarixi Zəfəri tam qələbə ilə tamamlayanları əzizlərimiz kimi xatırlayırıq...

**Leytenant Orxan Hüseynquliyev:**

- Həmin paradda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışından bəzi məqamlar çoxumuzun yaddaşındadı: "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr..."...

*2020-ci il noyabrın 9-u səhərlərin ən gözəli kimi açıldı. Cıdır düzünün qaranlığı çəkiləndə dünyanın başəri dövlətləri, başəri düşüncəlilər dedilər ki, açılan səhərin mübarək, Azərbaycan Ordusu! Suları durulan, bulaqları çağlayan, yelləri ağacların budaqlarını daraqlayan ellər-obalar dedilər ki, Zəfərin mübarək, Azərbaycan Ordusu! O gündən dörd il keçir. Necə dörd illər də tarixləşəcək, bu ovqat "Mən azərbaycanlıyam!" deyənlərin ömür qüruru kimi yaşadılacaq. Tarixdə də, yaddaşlarda da...*

**Rəşid HÜSEYNOV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərimizin xatirəsi anılıb







Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Şəhriyar Əlibəyli, Vaqif İsmayılzadə və Toğrul Atakişiyevin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.

Anım mərasimləri çərçivəsində şəhidlərimizin məzarları ziyarət olunub, üzərinə gül dəstələri qoyularaq xatirələri ehtiramla yad edilib.

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərimizin ailə üzvləri, döyüş yoldaşları və məktəblilərin iştirak etdiyi mərasimlərdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirələri bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimlərdə çıxış edənlər şəhidlərimizin şərəfli döyüş yolundan, peşəkarlığından söz açaraq Vətən müharibəsində və digər uğurlu əməliyyatlarda igid oğullarımızın göstərdiyi şücaət və qəhrəmanlıq nümunələrindən danışıblar.

Şəhidlərimizin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun ənənəvi döyüş üsullarına qatdığı məzmun və tətbiq edilən yeniliklər Vətən müharibəsinin parlaq səhifələrindəndir

*Müdafiə Nazirliyinin yaydığı vizual görüntülər, ictimailəşdirilmiş rəsmi, açıq mənbələrdən toplanmış məlumatlar, eləcə də döyüşlərdə iştirak etmiş şəxslərin söhbətlərinin təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, Vətən müharibəsində ənənəvi döyüş üsullarına əlavə etdiyi məzmun və tətbiq etdiyi yeniliklər sayəsində şanlı Azərbaycan Ordusu qısa müddət ərzində qalib gələrək əzəli torpaqlarımızı Ermənistan silahlı qüvvələrinin işğalından azad etmişdir.*

Qürurverici haldır ki, Azərbaycan Ordusunun 2020-2023-cü illərdə həyata keçirdiyi əməliyyatlar xarici ekspertlər, hərbi təhsil müəssisələri və beynəlxalq mərkəzlər tərəfindən öyrənilir, təhlil edilir. Vətən müharibəsinin növbəti ildönümünün qeyd edildiyi günlərdə döyüş əməliyyatlarında qələbələrimizi səciyyələndirən bəzi məqamlardan danışarkən aşağıdakı faktlar barədə mülahizələrimi oxucularla bölüşmək istərdim.

İlk olaraq qeyd etməliyəm ki, planlaşdırılan əməliyyatlar və veriləcək döyüş tapşırıqlarına aid həlledici məqamlarda məxfilik rejiminin qorunması ekstra səviyyədə təmin olunmuşdur.

Növbəti bir məqam kimi Vətən müharibəsi dövründə ordumuz tərəfindən pilotsuz uçuş aparatlarının (PUA), Quru Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr, artilleriya və hərbi aviasiyanın qarşılıqlı uzlaşma şəraitində sinxron fəaliyyəti qeyd edilməlidir.

Ölkəmizdə aparılan uğurlu ordu quruculuğu prosesində rabitə, avtomatlaşdırılmış idarəetmə sistemlərinin ən müasir tələblərə uyğunlaşdırılması, mobil qruplar vasitəsilə təminat-təchizat tapşırıqlarının, eyni vaxtda yaralıların döyüş meydanından düşmən atəşi altında təxliyəsinin operativ və fasiləsiz təmin olunması, qısa müddət ərzində mobil səhra hospitallarının işə salınması və mülki tibb müəssisələrinin hərbi həkimlərimizə dəstək üçün səfərbər edilməsindən də fəxr hissi ilə danışmaq olar. Şəxsi heyət baxımından itkilərin sayının minimum olması və döyüşlərin yüksək səviyyədə təminatı Ali rəhbərliyin ən əsas tapşırıqlarından biri idi.

Döyüş iştirakçıları ilə söhbətlər əsnasında eşitdiyim, artilleriya qurğularına və raket komplekslərinə atəş mövqelərinin qısa zamanda hazırlanması işlərini yerinə yetirmək üçün əlavə xüsusi texnikanın verilməsi faktını da ayrıca qeyd etmək olar. Həmin xüsusi texnikanın raket-artilleriya heyətləri tapşırıq yerinə yetirdiyi günlərdə onlarla daim birlikdə hərəkət etməsini də səmərəli bir yenilik olaraq misal göstərmək olar. Bu yanaşma düşmənin legitim hərbi hədəflərinə artilleriya zərbələrinin endirilməsinə, həmçinin, düşmən tərəfindən atəş vasitələrimizin yeri təyin edildikdə qısa vaxt ərzində başqa əraziyə hərəkət edərək, yeni atəş nöqtəsinin yaradılmasına imkan vermişdir.



Diqqət çəkən yeniliklərdən biri də indiki Zəfər yolunun bir hissəsinin ancaq gecə vaxtlarında, gərgin döyüşlərin getdiyi günlərdə, düşmənin xəbər tutmadan bir neçə gün ərzində çəkilməsidir. Bildiyimiz kimi, gecə vaxtlarında işləyən texnikanın səsi uzaq məsafədən eşidilir. Mühəndis Qoşunları indiki Zəfər yolunun müəyyən bir hissəsini çəkərkən, işləyən texnikalarımızın səsini düşmən eşitməsin, duyuq düşməsin deyə, yuxarı qərargahın tapşırığı ilə bir dəqiqədən bir artilleriya bölmələrimiz tərəfindən düşmən mövqelərinə atəş zərbələri endirilirdi. Ermənistan hərbçiləri xəbər tutanda, artıq 20 kilometrə yaxın yol salınmışdı. Həmin yoldan keçən Quru Qoşunlarının birləşmələri əməliyyat planına uyğun olaraq növbəti döyüş tapşırıqlarını icra edir.

PUA-lar vasitəsilə özümüzün və düşmən bölmələrinin 44 gün ərzində onlayn rejimdə müşahidə altında saxlamasını da ordumuzun ənənəvi döyüş üsullarına qatdığı yeni məzmun kimi dəyərləndirilməlidir. Fasiləsiz müşahidə sayəsində düşmən tərəfindən yarana biləcək təhdidlər və əks-həmlələr barədə bölmələrimizə əvvəlcədən xəbər verilir, lazım gəldikdə əməliyyatlara operativ müdaxilələr edilir, bölmələrimiz tərəfindən verilən tapşırıqların necə icra edildiyi qeydə alınırdı. Tətbiq edilən bu üsul düşmənin əks-həmlələrinə əvvəlcədən hazır olmağa, nəticədə döyüşlər zamanı bölmələrimizin itkilərini minimuma endirməyə imkan verirdi. Eyni zamanda, əməliyyat rayonuna əlavə güc və qüvvə cəlb etməyə başlayan Ermənistan silahlı qüvvələrinin ehtiyatlarının koordinatlarının artilleriya və aviasiya vasitələrimizə ötürülməsi təmin edilirdi. Döyüşlər zamanı qeydə alınmış videolar əsasında aparılan təhlillərin nəticələri bu gün qoşunların döyüş hazırlığı məşğələlərində, eləcə də təlimlərdə də geniş istifadə olunur.

Ərazilərimizin relyefi nəzərə alınaraq, tanklardan kütləvi şəkildə istifadə edilmədi. Yalnız Quru Qoşunlarına dəstək, düşmənin müxtəlif atəş nöqtələrinin məhv edilməsi və yarma əməliyyatında, eləcə də Ağdam istiqamətində düşmənin böyük bir qoşun hissəsini saxlamağa məcbur edən aldadıcı hücum əməliyyatlarında tanklarımızın səmərəli tətbiq edilməsi də ənənəvi döyüş metodlarına bir əlavə olaraq dəyərləndirilə bilər.

Təbii ki, döyüşlərlə bağlı elə məqamlar var ki, illər sonra da hərbi ekspertlər bu mövzuya maraqla müraciət edəcəklər.

Diqqət yetirilməli daha bir məqam, pilotlarımızın səmərələşdirici təklifləri əsasında Müdafiə Nazirliyinin təmir zavodlarının və yerli hərbi sənaye kompleksinin imkanları hesabına hərbi aviasiya vasitələrimizə quraşdırdığımız, eləcə də başqa ölkələrdən aldığımız qurğular sayəsində düşmənin hava hücumundan müdafiə vasitələrinin təsir dairəsinə daxil olmadan döyüş tapşırıqlarının icrasıdır. Hərbi təyyarə və helikopterlərimiz uzaq məsafədən düşmənə zərbələr endirməklə yanaşı, vizual müşahidələr aparmaqla digər bölmələrə düşmən qüvvələrinin hərəkəti və atəş vasitələri barədə operativ məlumatların ötürülməsini də təmin edir, eləcə də düşməni "kor edəcək" xüsusi manevrlər yaradırdılar.

Vətən müharibəsi zamanı Komando hərbi hissələrimizin olmamasına baxmayaraq, qısa zaman kəsiyində yaranmış, qısaldılmış intensiv döyüş hazırlığı kursu keçmiş həmlə taborları əməliyyatlar zamanı özünü tam doğrultdu. Həmlə taborlarının şəxsi heyəti ən çətin tapşırıqları belə uğurla icra edərək qələbələrimizə böyük töhfələr verdi. Bununla bağlı sadəcə deyə bilərəm ki, həmlə taborlarının əməliyyatlarda istifadəsi zamanı da ənənəvi döyüş metodlarından fərqli üsullar tətbiq edilmişdir. Sonradan həmin taborların şəxsi heyətinin böyük bir qismi Komando hərbi hissələrində xidmət etmək üçün müraciət etdi.

Vətən müharibəsi döyüşlərində və digər əməliyyatlarda xüsusi tapşırıqlarla yanaşı, əməliyyat şəraitinə uyğun olaraq düşmənin dayaq nöqtələrinin, sığınacaqlarının, qərargahlarının, digər legitim hədəflərinin sıradan çıxarılması və bəzi strateji yüksəkliklərin düşməndən təmizlənməsi, həmçinin bölmələrimiz həmin əraziləri nəzarətə götürənədək müdafiə olunması üzrə tapşırıqlar da xüsusi təyinatlılar tərəfindən uğurla yerinə yetirildi. Müxtəlif qoşun növlərinin, artilleriya və aviasiya vasitələrinin dəstəyindən məharətlə yararlanan xüsusi təyinatlılarımız düşməndən təmizləyərək azad etdikləri ərazilərimizi, mövqe və yaşayış məntəqələrini motoatıcı bölmələrin nəzarətinə verdikdən sonra növbəti tapşırıqların icrasına başlayırdılar.

Xüsusi təyinatlılarımız kiçik qruplar halında hərəkət edirdilər. Qrupların tərkibinə müxtəlif xüsusi tapşırıqları icra etməyi bacaran yüksək peşəkarlığa malik hərbi qulluqçular daxil idi. Qrupların kiçik olması gizli sızmalar edilməsini, operativliyi və düşməni qəfil yaxalama effektini qat-qat gücləndirmiş, xüsusi təyinatlılarımızın fəaliyyəti ilə bağlı məxfiliyi qorumağa imkan vermişdir. Bununla bağlı sadəcə bir fikir söyləmək istərdim: "Düşmən duyuq düşəndə xüsusi təyinatlılarımız artıq onun mövqeyində idi".

Xüsusi təyinatlılarımızın yüksək peşəkarlığının ən bariz göstəricisi isə qarşıya qoyulmuş tapşırıqların qüsursuz icrası, Müzəffər Ali Baş Komandan tərəfindən layiq görüldükləri təriflər və Şuşanın azad edilməsi kimi unikal əməliyyatın yalnız atıcı silahlarla həyata keçirilməsidir.

**İsa İSMAYILOV,**
**ehtiyatda olan polkovnik-leytenant,**
**hərbi jurnalist**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri.**

**2. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.**

**Mövzu:** Döyüş hazırlığında, döyüş növbətçiliyində təhlükəsizlik qaydalarına riayət edilməsi, hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.

### Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Nizamnamə və təlimatlarının, müdafiə nazirinin əmrlərinin, eləcə də bilavasitə rəislərin əmr və sərəncamlarının tələblərinə müvafiq olaraq, birləşmə və hissələrdə təhlükəsizlik tədbirlərinin təşkili, onların keçirilməsinə rəhbərlik və nəzarət edilməsi komandirlərə və digər vəzifəli şəxslərə həvalə olunur. Onlar döyüş hazırlığı məşğələlərini təşkil edərkən və bu məşğələlərin gedişində təhlükəsizliyin təmin olunmasına dair tədbirlərin işlənib hazırlanmasını həyata keçirirlər.

Döyüş növbətçiliyi "Döyüş növbətçiliyinin təşkili və aparılmasına dair Təlimat"a uyğun təşkil olunur və düşmənin qəfildən hücumunun vaxtında aşkar edilməsi və dəf olunması, həmçinin müdafiənin dayanıqlılığını və keçilməzliyini təmin etmək məqsədilə təşkil olunur. Silahlarla, döyüş və digər texnika, eləcə də cihazlarla işlədikdə, marş, təlim, döyüş atışları, uçuş, gəmi səfərləri, xüsusi məşğələlər aparıldıqda, qarovul və daxili xidmət növbətçiliyi zamanı komandir (rəis) adları çəkilən hallar üçün zəruri təhlükəsizlik tədbirlərini müəyyənləşdirib, tabeliyində olanlara çatdırmalı və bu tədbirlərin ciddi surətdə yerinə yetirilməsini tələb etməlidir.

**Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı postlarda (döyüş mövqelərində) aşağıdakı təhlükəsizlik qaydalarına əməl edilməlidir:**

- ehtiyac olmadan patronu patron yuvasına yeritməmək;
- silahla əsgər sığınacağına daxil olmamaq;
- silahı doldurma-boşaltma yerində ancaq post (mövqe) başçısının nəzarəti altında silahı doldurmaq (boşaltmaq);
- daraq taxılandan sonra silahı qoruyucuda saxlamaq;
- doldurulmuş silahla (qoruyucuda olsa belə) davranış qaydalarını pozmamaq;
- içərisində mərmi (patron) olub-olmamasından asılı olmayaraq, silahı şəxsi heyətə, əsgər sığınacağına, yaşayış məntəqəsinə tərəf yönəltməmək;
- silaha boş darağı taxarkən patronun olub-olmamasına nəzarət etmək;
- gecə vaxtı tonqalların qalanmasına, maşınların qarşı tərəfin (düşmənin) müşahidəsi altında olan sahələrdə qoşulmuş faralarla hərəkətinə yol verməmək.

Döyüş növbətçiliyində olarkən silahı sökməməli, qarşı tərəflə (düşmənlə) heç bir halda əlaqəyə girməməli, döyüş növbətçiliyinin yerini (postu) post (mövqe) başçısının icazəsi olmadan tərk etməməli və deyilən tələbləri yerinə yetirməyən əsgər yoldaşı barədə dərhal post (mövqe) başçısına məruzə edilməlidir.

Hərbi qulluqçuların sağlamlığının qorunması sanitar-gigiyena qaydalarına əməl edilməsi, profilaktika və epidemiya əleyhinə tədbirlərin keçirilməsi ilə, həmçinin ərazidə tanınmayan bitki və meyvələri yeməməklə, həşəratlara yaxın durmamaqla və açıq ərazidə yatmamaqla şəxsi heyətin sağlamlığı üzərində daimi tibbi nəzarətlə əldə edilir.

Hər bir hərbi qulluqçu şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etməli və öz orqanizmini gündəlik möhkəmləndirməli, tərli-tərli soyuq su içməməli, kəsici, deşici əşyalarla zarafat etməməli və həkimin məsləhəti olmadan dərman qəbul etməməlidir. Yoxlanılmamış su hövzələrindən su içməməli, ancaq qaynadılmış suyu içmək məsləhət görülür. Soyuq vaxtlarda hərbi qulluqçuların orqanizminin həddindən artıq soyuması və donması, isti vaxtlarda isə həddindən artıq qızması, gün yanıqları və istilikvurma hallarının qarşısını alan tədbirlərin görülməsi xüsusi əhəmiyyət kəsb edir. Hava şəraitindən asılı olaraq ildırım vurma, donvurma və qar uçqunlarından qorunma tədbirlərinə ciddi riayət etmək lazımdır.

Əhvalı pozulmuş, hər hansı bir psixoloji və ailə problemi olan əsgər yoldaşı barədə dərhal post (mövqe) başçısına məruzə edilməlidir. Çünki belə hallar intihara gətirib çıxara bilər. Vaxtında edilmiş məruzə və komandanlıq tərəfindən həyata keçiriləcək müvafiq tədbirlərlə intihar hallarının qarşısı alına bilər.

**Atış çalışmalarının, döyüş atışlarının və döyüş atışlı taktiki təlimlərin keçirilməsi zamanı təhlükəsizlik tədbirləri:**

- Atışda təhlükəsizlik, atışların düzgün təşkili, "Atış kursu"nda qoyulma qayda və təhlükəsizlik tədbirlərinə dəqiq riayət etməklə, bütün hərbi qulluqçuların yüksək intizamı ilə təmin olunur. Atış keçirilən hər bir obyektdə, onun xüsusiyyətlərini və ərazi şəraitini nəzərə alaraq təhlükəsizlik tədbirləri üzrə təlimat hazırlanır və onu atışa çıxarılmış bölmələrin şəxsi heyəti bilməlidir. Təhlükəsizlik tədbirlərini mənimsəməmiş şəxsi heyət atışa buraxılmır.
- Hər bir hərbi qulluqçu atışda təhlükəsizlik tədbirlərini dəqiq yerinə yetirməlidir. Hərbi hissə və bölmə komandirləri onlara tabe olan şəxsi heyətin təhlükəsizlik tədbirlərinə dəqiq riayət etmələrinə tam məsuliyyət daşıyırlar.
- Atışdan əvvəl hədəf meydanı yoxlanılmalıdır və atış ərazisindən insanlar, heyvanlar və maşınlar çıxarılmalıdır. Atış obyektində hərəkətə yalnız təlim mərkəzi rəisinin göstərdiyi yollarda və rayonlarda icazə verilir.
- Partlamamış mərmilər, minalar, bombalar, partladıcılar və partlama təhlükəli maddələr olan sahələrə girmək (maşınla) qadağandır. Belə sahələrdə müvafiq nişanlı və xəbərdarlıq yazılı göstəricilər qoyulmalıdır.
- Partlamamış mərmilərə, minalara və başqa partlama təhlükəsi olan cisimlərə və yamsılama vasitələrinə toxunmaq qadağandır. Hər partlamamış mərmi (qumbara, partlamamış maddə), yamsılama atımı haqqında baş atış rəhbərinə və təlim mərkəzi rəisinə müəyyən olunmuş qaydada məlumat verilməlidir.
- Atəş açan döyüş maşınları ekipajlarının atış rəhbəri ilə rabitəsi olmayanda (itəndə) atəş açmaq və aparmaq qadağandır. Hədəf meydanında, uçuş məkanında yanğın əmələ gəldikdə, atəş açan döyüş maşınlarının ekipajları səmti itirdikdə və qoşunlardan 100 metrdən çox geriyə qaldıqda da atəş dərhal dayandırılır. Atışı dayandırma siqnalları və "Dur", "Atəşi dayandır" komandaları ilə döyüş maşınları (atıcılar) dayanırlar, atəşi dayandırırlar, silahları boşaldırlar və qoruyucuya qoyurlar (elektrik tətiyi açılır).
- Döyüş maşınları ilkin vəziyyətə qayıdana kimi ("Maşınlara" komandası verilənə qədər) lükləri açmaq və döyüş maşınlarından çıxmaq qadağandır.
- Əl döyüş qumbaraları atılanda zapal yalnız qumbaranı atmaqdan əvvəl rəhbərin komandası ilə qoyulur. Döyüş əl qumbaralarını qumbara çantasından kənarda daşımaq qadağandır. Daldanacaqdan müdafiə və tank əleyhinə qumbaralar partlayandan 10 saniyədən az olmayaraq keçəndən sonra çıxmaq olar. Əgər doldurulmuş döyüş qumbarası atılmayıbsa (qoruyucu mil çıxarılmayıb), onun boşaldılması yalnız bilavasitə rəhbərin müşahidəsi altında və komanda ilə yerinə yetirilir.

### Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi

Hərbi xidmətin təhlükəsizliyi - hərbi qulluqçuların təhlükəli və zərərli amillərin təsirindən həyati vacib maraqlarının müdafiəsi dərəcəsini əks etdirən hərbi xidmətin vəziyyətidir. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi hərbi qulluqçuların həyat və sağlamlığının qorunub saxlanılmasına, qoşunların həyat fəaliyyətinin bütün növlərinin təhlükəsizlik şəraitinin təşkilinə, eləcə də xidməti vəzifələri yerinə yetirərkən şəxsi heyətin ölümünə və xəsarət almasına səbəb olan amillərin təhlili, proqnozlaşdırılması və təsirinin məhdudlaşdırılmasına yönəlmiş Azərbaycan Respublikasının qanunvericiliyinin, Silahlı Qüvvələrin ümumqoşun nizamnamələrinin, Müdafiə Nazirliyinin müvafiq normativ aktlarının tələblərinin yerinə yetirilməsinə dair vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının məqsədyönlü fəaliyyətidir.

Xidməti vəzifələrini (müvafiq işi) yerinə yetirən zaman hərbi qulluqçuların təhlükəsizliyini təmin edən qanunvericilik aktları ilə, normativ-texniki sənədlərlə, qaydalar və təlimatlarla müəyyən edilmiş təhlükəsizlik tələbləri vardır. Azərbaycan Respublikasının müdafiə nazirinin qərar və əmrləri, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanlarının əmr və sərəncamları ilə əlavə təhlükəsizlik tələbləri müəyyən edilir.

Hərbi qulluqçuların həyat və sağlamlığı üçün real təhlükə yaradan təhlükəli hallar vardır ki, onlara çovğun, tufan, yolların buz bağlaması, dənizdə qasırğa, çayda burulğan, epidemiya və s. hallar aiddir. Hərbi xidmət zamanı hərbi qulluqçuların zədələnməsinin və digər bədbəxt hadisələrin, xəstəliklərin qarşısının alınması və sağlamlığının qorunması məqsədilə onlarla sanitar-gigiyena, epidemiya əleyhinə və müalicə-profilaktika xarakterli işlər aparılır.

Hərbi xidmətin təhlükəsizliyinin obyektlərinə hərbi qulluqçular, yerli əhali və ətraf təbii mühit, subyektlərinə isə hərbi hissələrin və hərbi idarəetmə orqanlarının vəzifəli şəxsləri aiddir.

**Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin əsas məqsədi aşağıdakılardır:**

- şəxsi heyət arasında qeyri-döyüş itkilərinin qarşısının alınması;
- hərbi qulluqçular tərəfindən yerli əhaliyə qarşı hüquq pozuntularının qarşısının alınması;
- ətraf təbii mühitə zərər vurmağın maksimum azaldılması.

Hərbi hissədə hərbi xidmət təhlükəsizliyinin təmin olunması sisteminin əsas vəzifəsi - hərbi xidmətin təhlükəsizlik səviyyəsini azaldan mənfi amillərin təsirinin neytrallaşdırılması və gündəlik fəaliyyət prosesində bütün kateqoriyalı hərbi qulluqçuların optimal idarə olunmasının təşkilidir.

**Hərbi xidmət təhlükəsizliyinin təmin olunmasının digər vəzifələri aşağıdakılardır:**

- hər bir hərbi qulluqçuda təhlükəsizlik tədbirlərinə və qaydalarına ciddi əməl olunmasına dair şəxsi məsuliyyətin formalaşması;
- şəxsi heyətdə həm öz həyatının, sağlamlığının, həm də ətrafdakıların həyat və sağlamlığının qorunub saxlanılmasına şüurlu münasibətin formalaşdırılması;
- bütün kateqoriyalı vəzifəli şəxslərə hüquqi mədəniyyətin və mövcud hüquq normalarının yerinə yetirilməsi hissinin aşılanması;
- hərbi qulluqçuların maksimum təhlükəsiz fəaliyyətini təmin edən möhkəm hərbi-peşəkar və mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması;
- bütün kateqoriyalı hərbi qulluqçulara, hərbi nizamnamələrə hörmətlə yanaşılmasının, onların tələblərinə ciddi əməl edilməsinə dair bacarıq və vərdişlərin aşılanması, şəxsi intizamın və icraçılığın tərbiyəsi;
- şəxsi heyətdə mülki əhaliyə hörmətlə yanaşmanın və onlara qarşı normativ hüquqi tələblərin ciddi yerinə yetirilməsinin formalaşdırılması;
- hərbi qulluqçularda ətraf mühitə humanist münasibətlərin formalaşması.

**Hərbi xidmətin təhlükəsizliyi aşağıdakı əsas növlərə bölünür:**

- döyüş növbətçiliyinin (növbəsi) təhlükəsizliyi;
- qarovul, daxili və qarnizon xidmətinin təhlükəsiz aparılması;
- silah və hərbi texnikanın istismarının təhlükəsizliyi;
- döyüş hazırlığının (o cümlədən, atış çalışmaları, döyüş atışları, taktiki təlimlərin keçirilməsi, döyüş texnikasının sürülməsi) təhlükəsizliyi;
- praktiki və xüsusi məşğələlərin təhlükəsizliyi;
- təsərrüfat işlərinə cəlb edilən hərbi qulluqçuların təhlükəsizliyi.

Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsinə dair komandirlərin fəaliyyətinin vacib mərhələsi tabeçilikdə olan bölmələrdə hərbi xidmətin təhlükəsizliyinin vəziyyətinin təhlili və onun təmin edilməsinə dair yekunların keçirilməsidir.

Hərbi xidmətin təhlükəsizliyin vəziyyətinin təhlilinə hərbi xidmətin təhlükəsizliyinin vəziyyətinə dair məlumatların toplanması və sistemləşdirilməsi, aparılan işdə mövcud nöqsanlar və onların xarakterik səbəbləri, hərbi qulluqçuların, mülki işçilərin həyat və sağlamlığına, ətraf mühitə zərər vurma hallarının qarşısının alınması tədbirlərinin müəyyən edilməsi daxildir. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsinə dair yekun döyüş hazırlığının, hərbi intizamın, qoşun xidmətinin təhlili və yekunu ilə bir vaxtda keçirilir.

Hərbi qulluqçuların fiziki və psixoloji sağlamlığının qorunması və möhkəmləndirilməsinə qayğı göstərilməsi komandirlərin əsas vəzifəsidir. Məhz onların üzərinə qoşun xidməti, döyüş hazırlığı, döyüş növbətçiliyi (növbəsi), təsərrüfat və hərbi hissənin (bölmələrin) digər fəaliyyət növləri ilə əlaqədar keçirilən müxtəlif tədbirlər zamanı təhlükəsizlik tələblərinin təmin olunmasına görə böyük məsuliyyət düşür.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin qəbulunu elan edir




Azərbaycan Ordusunda "Motoatıcı" və "Komando" (Quru Qoşunları üzrə) ixtisasları üzrə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbuluna başlanılır.

Ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, **30 yaşınadək hərbi vəzifəlilər 29 oktyabr - 7 noyabr, 25 noyabr - 30 noyabr 2024-cü il tarixlərdə** Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə qəbul komissiyası tərəfindən Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilir.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunur.

**Namizədlər qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidir:**

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə);
- təhsil haqqında sənədin sürəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- şəxsiyyət vəsiqəsinin surəti (1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (şəxsiyyət vəsiqələri olmadıqda doğum haqqında şəhadətnamələrin surəti, 1 nüsxədə);
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə).

**Sənədlərin qəbulu həyata keçiriləcək ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Eldar Ağayev küçəsi 126 (Bakı Hərbi Məhkəməsinin yanı).

**Müraciət etmə vaxtı:** Qeyd olunmuş tarixlərdə, saat 09:00-dan 17:00-dək (bazar günləri istisna olmaqla).

**Qeyd:**

1. Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

2. "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirmiş şəxslərin təyinatı Quru Qoşunlarının ehtiyaclarına uyğun vakant vəzifələrin komplektləşdirilməsi üzrə həyata keçiriləcək.

## Hərbi texnikalar, silahlar

# ITX-20 H MRAP avtomobili



**Bakıda keçirilən "ADEX 2024" Beynəlxalq Müdafiə Sərgisi zamanı istehsalçı "İmprotex Group" özünün yeni ITX-20 H MRAP (Mine Resistant Ambush Protected) avtomobilini ilk dəfə olaraq təqdim edib. Bu avtomobillər şəxsi heyətin daşınması və müxtəlif hərbi təyinatlı tapşırıqların yerinə yetirilməsi üçün nəzərdə tutulub.**

**Çəkisi 19,5 ton olan ITX-20 H MRAP avtomobili 375 at gücü (dizel) mühərrikə və 6 pilləli avtomat transmissiyaya malikdir. Heyəti 10 nəfərdən - sürücü, komandir, tuşlayıcı və 7 nəfər sıravi heyətdən ibarət olan avtomobilin maksimal sürəti 100 km/saat-dır. Gücləndirilmiş zireh və pulemyot qülləsi ilə təchiz edilən avtomobil tank əleyhinə minalardan və pulemyot atəşindən optimal müdafiə olunmaqla yanaşı, şəxsi heyətin təhlükəsiz daşınmasını təmin edir. Avtomobil təhlükəli mühitlərdə hərəkətliliyi yaxşılaşdıraraq sürətli dəstək və komandaların əraziyə təhlükəsiz gəlməsini təmin edir.**

**"İmprotex Group" MMC-nin nümayəndəsi Fərid Abdullayev jurnalistlərə bildirib ki, "İmprotex"in hərbi zirehli maşınlarının potensial müştəriləri əsasən Cənubi Asiya və Cənubi Amerikadır. O, həmçinin vurğulayıb ki, şirkətin prioritet vəzifəsi ölkənin daxili tələbatını ödəməkdir. Abdullayev qeyd edib ki, yerli istehsal olan ITX avtomobilləri ilkin olaraq 3-4 ay ərzində ciddi sınaqlardan keçəcək. Azərbaycanın müdafiə sənayesi bu istiqamətdə inkişaf edəcək və imkanlarını artıracaq.**



**"İmprotex Group" həmçinin "ADEX 2024" sərgisində üç yeni zirehli texnikasını da təqdim edib. Şirkət ITX-20 H ilə yanaşı, ITX-15 M və ITX-6 L modellərini təqdim etdi. Bu avtomobillər şəxsi heyətin daşınmasından tutmuş patrul əməliyyatlarına, komanda məntəqələrinə və tibbi evakuasiyaya qədər bir sıra missiyaları yerinə yetirmək üçün nəzərdə tutulub.**

**F.Abdullayevin sözlərinə görə, İmprotex ölkənin hərbi və hərbiləşdirilmiş strukturlarının ehtiyaclarına cavab verən fərdi həllər təklif etməklə idxaldan asılılığı azaltmağa çalışır.**

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

### Azərbaycan cüdoçuları Gimnaziadanı 13 medalla başa vurublar



Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında cüdo yarışlarına yekun vurulub.

Son yarış günündə Azərbaycan cüdoçuları 6 medal qazanıblar.

Qızlar arasında Diana Eldarova (57 kiloqram) bürünc mükafata sahib çıxıb. Oğlanlar arasında Məhəmməd Ağakişiyev və Səid Şərifov (73 kiloqram) finalda birincilik uğrunda mübarizə aparıblar. Görüşün yekununda M.Ağakişiyev qızıl, S.Şərifov isə gümüş medal əldə edib. Amin Mehdiyev (81 kiloqram) və Səid Hüseynov (90 kiloqram) ikinci, Sübhan Axundov (90 kiloqram) isə üçüncü yeri tutub.

Oyunların ilk günündə Azərbaycan yığması 1 qızıl, 1 gümüş, 5 bürünc medal qazanıb. Bununla da, milli komanda cüdo yarışlarını 2-si qızıl, 4-ü gümüş və 7-si bürünc olmaqla ümumilikdə 13 mükafatla başa vurub. Nəticədə Azərbaycan seçməsi yarışda medal əyarına görə ümumi hesabda ikinci, oğlanlar arasında birinci, qızlar arasında isə doqquzuncu yeri tutub.

### Azərbaycan gimnastları Almaniyadakı turnirdə fəxri kürsüyə qalxıblar



Batut gimnastikası üzrə Azərbaycan millisi Almaniyanın Kotbus şəhərində keçirilən "GymCity Open" beynəlxalq yarışında uğurla çıxış ediblər.

Yığma üzvləri sinxron proqramda 1-ci və 2-ci yerin sahibi olublar.

Yeniyetmələr arasında Əli Niftəliyev və Ammar Baxşalıyev, böyüklərdə isə Hüseyn Abbasov ilə Nicat Mirzəyev fərqləniblər.

### Azərbaycanın qadın güləşçisi dünya çempionu olub




Albaniyanın paytaxtı Tiranada 23 yaşadək güləşçilər arasında dünya çempionatı davam edir.

Mundialın dördüncü günündə qadın güləşi üzrə millinin son 2 üzvü xalçaya çıxıb.

Jalə Əliyeva (57 kiloqram) 1/8 finalda ukraynalı Alina Filipoviçdən güclü olub - 7:4. Həmyerlimiz növbəti mərhələdə isə türkiyəli Sevim Akbaşa heç bir şans verməyib - 10:0. Əliyeva yarımfinalda isə amerikalı Sofiya Makalusonu "tuş"la üstələyib və ardıcıl ikinci dəfə U-23 dünya çempionatının finalına yüksəlib. Jalə finalda yaponiyalı Ruka Natami ilə qarşılaşıb. Daha öncə yeniyetmələr və gənclər arasında dünya çempionu olmuş rəqiblə görüş gərgin mübarizə şəraitində keçib. Natamiyə 10:8 hesabı ilə qalib gələn güləşçimiz dünya çempionu olub.

### Azərbaycan boksçuları Gimnaziadanı 18 medalla başa vurublar



Azərbaycan boksçuları Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında 18 medal qazanıblar.

Əli Əliyev (46 kiloqram), Şahin Mustafayev (48 kiloqram), Nihad Qasımov (50 kiloqram), Zakir Həsənzadə (52 kiloqram), Sübhan Babayev (54 kiloqram), Şahin Aslanov (60 kiloqram), Haqverdi Həsənov (63 kiloqram), Rza Rzayev (70 kiloqram), Gülər Hüseynova (46 kiloqram), Banuçiçək Nəsirli (48 kiloqram), Əminə Tağı (54 kiloqram) və Dəniz Babayeva (63 kiloqram) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yalnız finalda uduzan Aylin Nəzərova (50 kiloqram), Aysu Mikayılova (52 kiloqram), Mələk Hümbətova (57 kiloqram) və Valeh Eyvazlı (66 kiloqram) gümüş, Adil Zalovla (75 kiloqram) Səftər Məmmədzadə (+80 kiloqram) isə bürünc mükafata sahib çıxıblar.

Qeyd edək ki, oktyabrın 30-dək davam edəcək Gimnaziadada Azərbaycan 16 növ üzrə 160 idmançı ilə təmsil olunur.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 653
Nüsxə 4650